# Tanınmış cərrah, görkəmli alim, tarixə iz salan şəxsiyyət



**Şərəfli, həm də keşməkeşli tariximizin səhifələrində elə adlar var ki, onların fəaliyyəti bütöv bir epoxanı əhatə edir və zaman keçdikcə gördükləri işlərin əhəmiyyəti daha da aydın duyulur. Azərbaycan tibb elminin inkişafında müstəsna xidmətləri olan tanınmış cərrah-alim, ictimai və dövlət xadimi Mustafa Topçubaşov zəngin elmi irsi, pedaqoji fəaliyyəti ilə milli səhiyyəmizin formalaşmasında və inkişafında böyük rol oynamış, ömrünü həsr etdiyi tibb elmində qazandığı uğurları insanlıqla, vətənpərvərliklə birləşdirən görkəmli şəxsiyyətdir.**

1895-ci il avqust ayının 5-də qədim İrəvan quberniyasının Göygümbərt kəndində dünyaya gələn M.Topçubaşov kiçik yaşlarından təhsilə, elmə maraq göstərmişdir. Həmin dövrdə İrəvan azərbaycanlı ziyalıların yetişdiyi mühüm mərkəzlərdən idi. Atası Mustafanı elmə, təhsilə yönəltməklə onun gələcəyinə istiqamət vermişdi. Belə ki, İrəvandan başlayan ömür yolu Bakıda, daha sonra isə Sankt-Petroqradda davam etmiş, dövrün tanınmış tibb alimlərindən mükəmməl təhsil almışdır. Birinci Dünya müharibəsi, 1917-ci ildəki inqilablar



tələbəlik illərinə təsadüf etsə də, müharibə, inqilablar, mühacirətlər onun savadlı, elmli, bilikli cərrah kimi yetişməsinə mane ola bilməmişdi. 1919-cu ildə ali təhsilini müvəffəqiyyətlə başa vurub Bakıya qayıtdıqdan sonra əmək fəaliyyətinə başlayan gənc cərrah 1920-1923-cü illərdə Azərbaycan Dövlət Universitetində (indiki BDU) tibb fakültəsinin fakültə cərrahlığı klinikasında ordinator, sonra isə assistent işləmişdir. O, 24 yaşında Bakı Dövlət Universitetində dərs deməyə başlamışdır. 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək professor adına layiq görülmüş, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri təyin olunmuşdur.

1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə injeksion efir-yağ narkozunu - analgeziya üsulunu kəşf etməsi Mustafa Topçubaşovun elmi fəaliyyətində ilk uğur idi. Bu sadə, hazırlanma və tətbiq texnikası asan olan metod zamanı dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması kimi bir sıra mənfi halların aradan qaldırılmasına imkan verirdi. Məhz bu xüsusiyyətlərinə görə alimin kəşfi tibb sahəsində geniş tətbiq edilmiş, həmçinin, öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma hallarında, müalicə və doğuş zamanı ağrısızlaşdırma vasitəsi kimi istifadə olunmuşdur. 1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında tibb sahəsində geniş tətbiq olunan və özünü dogruldan efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir.

Respublika səviyyəsində tanınmış cərrahın elmi işləri əsasən ümumi cərrahiyyə, travmatologiya, onkologiya sahələrini əhatə etmişdir. Cərrahiyyə sahəsində yeni üsullar, müalicə metodları tətbiq etməklə elmi yeniliklərə imza atmış alimin elmi-tədqiqat işləri təkcə respublikamızda deyil, keçmiş SSRİ məkanında və beynəlxalq aləmdə də maraqla qarşılanmışdı. O, bir çox beynəlxalq tibb konqreslərinin iştirakçısı olmuş, geniş məruzələrlə çıxış etmişdir. Alimin əsərləri rus, alman, ingilis və digər dillərə tərcümə olunmuşdur. M.Topçubaşov bir sıra beynəlxalq elmi cəmiyyətlərin fəxri üzvü seçilmiş, xarici ölkələrin elmi-tibbi qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulmasında yaxından iştirak etmişdir.

II Dünya müharibəsi illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışan Mustafa Topçubaşov SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı olmuş və onun bu təklifi hərbi cərrahlıq işinin təşkilində əhəmiyyətli rol oynamışdır. Azərbaycan tibb elminin inkişafında əvəzsiz xidmətləri olan alim 1940-cı ildə əməkdar elm xadimi adına layiq görülmüş, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaradıldıqda ilk həqiqi üzvlərindən biri seçilmişdir. Ömrünün 30 ilini Azərbaycan Elmlər Akademiyasının yaranmasına və inkişafına sərf etmiş, Akademiyanın vitse-prezidenti vəzifəsində çalışmışdır. Onun bu quruma rəhbərliyi dövründə bir çox yeni elmi-tədqiqat institutları təsis olunmuş, mövcud sahələrdə fundamental araşdırmalara başlanılmışdır.

Mustafa Topçubaşov Azərbaycan Cərrahlar və Uroloqlar Cəmiyyətlərinin fəxri sədri, 1955-1959-cu illərdə isə Ali Sovetin sədri seçilmişdir. Həmçinin bir neçə çağırış Azərbaycan SSR və SSRİ Ali Sovetinin deputatı olmuş, səhiyyə və elm sahəsində mühüm qanunvericilik təşəbbüsləri ilə çıxış etmişdir. Akademik Mustafa Topçubaşov SSRİ Elmlər Akademiyasının müxbir üzvü idi. Alimin elmi fəaliyyəti təkcə Azərbaycanda deyil, xaricdə də yüksək dəyərləndirilmişdir. O, 1951-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, 1954-cü ildə isə XI Lissabon konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdi. Bundan əlavə, Ümumittifaq Cərrahlar Cəmiyyəti, Vişnevski adına Cərrahlar Cəmiyyəti, "Abdominal cərrahiyyə" jurnalının redaksiya heyəti və "Böyük Tibb Ensiklopediyası"nın redaktorlar heyəti kimi nüfuzlu qurumlarda fəal iştirak etmişdir. Uzun illər Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri, Asiya, Afrika və Latın Amerikası ilə Dostluq Komitəsinin və Ümumittifaq Sülh Komitəsinin üzvü, Sovet İttifaqı Asiya və Afrika xalqları ilə Həmrəylik Komitəsinin fəal təmsilçisi olmuşdur. Onun bu sahədəki məhsuldar fəaliyyətinə görə 1959-cu ildə Ümumdünya Sülh Şurasının gümüş medalı ilə təltif edilməsi beynəlxalq ictimaiyyətin bu böyük azərbaycanlıya verdiyi qiymətin göstəricisidir.

Elmi irsinin ən qiymətli səhifələrindən biri yaratdığı cərrahiyə məktəbidir. O, Azərbaycan Tibb Universitetində uzun illər kafedra müdiri və professor kimi çalışmış, onlarla elmlər doktoru, yüzlərlə tibb üzrə fəlsəfə doktoru yetişdirmişdir. Görkəmli pedaqoqun tələbələri - alimlər, akademiklər, səhiyyə təşkilatçıları nəinki respublika səviyyəsində, postsovet məkanında da tanınmışdılar. Alimin təşəbbüsü ilə Azərbaycanda cərrahiyyə elminin tədrisi və tətbiqi yeni mərhələyə keçmiş, Azərbaycan Tibb Universitetində tədris prosesi təkmilləşdirilmiş, yeni dərsliklər, metodik vəsaitlər ilə tədris proqramları müasirləşdirilmişdir.

Mustafa Topçubaşovun elmi fəaliyyəti də geniş və çoxşaxəli idi. Alimin rəhbərliyi ilə ölkəmizdə tibb elmi böyük inkişaf yolu keçmiş, onun təşkilati strukturu möhkəmlənmişdir. Akademik 8 monoqrafiyanın, 5 cilddə "Xüsusi cərrahlıq" dərsliklərinin, ümumilikdə 200-dən artıq elmi işin, "Ürək-damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahlıq", "Yad cisimləri çıxaran aparat və onun tətbiqi", "Normal hipertenziya və onun cərrahi müalicəsi", "Uzunmüddətli analgeziyanın tibdə tətbiqi" kimi elmi tədqiqat əsərlərinin müəllifidir. Onun redaktəsi ilə kombinasiyalı ağrısızlaşdırma ilə bağlı üç elmi iş toplusu çap olunmuşdur.

Sovet İttifaqı miqyasında tanınan cərrah ictimai xadim, alim və vətəndaş kimi böyük nüfuz sahibi idi. Görkəmli alimin çoxşaxəli fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmiş, iki dəfə "Lenin", bir neçə dəfə "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri və bir sıra digər mükafatlarla təltif olunmuşdur. 1975-ci ildə ona "Sosialist Əməyi Qəhrəmanı" fəxri adı verilmişdir ki, bu da ümumilikdə Azərbaycan tibb elminə verilən ali qiymət hesab olunurdu. Ümummilli lider Heydər Əliyev 1995-ci ildə görkəmli alim və cərrah Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli gecədə çıxışı zamanı demişdir: "Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün ən vacib olan sahə - onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini məhz bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir. Onun xidmətləri məlumdur. Azərbaycan xalqının qazandığı böyük nailiyyətlərdə möhkəm yeri də hamıya məlumdur. Biz bu gün buraya toplaşaraq, onun xidmətlərinə yüksək qiymət verərək, xatirəsinin nə qədər əziz olduğunu nümayiş etdiririk". Akademik Mustafa Topçubaşovun adı Azərbaycan elmi mühitində fəxrlə çəkilir. Alimin elmi irsi yalnız tibb sahəsinə deyil, bütövlükdə Azərbaycan ziyalılıq düşüncəsinə, xidmətə, peşəkarlığa və vətənpərvərliyə çağırış kimi bu gün də aktuallığını qoruyur. Azərbaycan Tibb Universitetində onun adına kafedra fəaliyyət göstərir, hər il Mustafa Topçubaşov adına elmi konfrans və tədbirlər keçirilir.

Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri, Azərbaycan SSR EA-nın və keçmiş sovet Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı, Əməkdar elm xadimi, Azərbaycan SSR EA-nın vitse-prezidenti Mustafa Topçubaşov 1981-ci ildə Bakıda vəfat etmişdir. Bu il Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və ictimai xadim, tibb elmləri doktoru, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur. Prezident İlham Əliyev çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük alimin ildönümünün qeyd olunması ilə bağlı sərəncam imzalamışdır. Sərəncamda deyilir: "...Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır".

Tanınmış cərrah, böyük alim, akademik Mustafa Topçubaşov bütöv bir epoxanın elmi siması, maarifçi və xalqına sədaqətlə xidmət edən ziyalı idi. Onun elmi, pedaqoji və ictimai fəaliyyəti hər zaman örnək olmuş, gələcək nəsillərin yoluna işıq salmışdır. Akademikin Azərbaycan tibb təhsilinin və milli səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələri bu gün də öz bəhrəsini verir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**